*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2001-ci il 16 iyul tarixli 32-II FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir.*

**Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi haqqında**

**Ə S A S N A M Ə**

(qeyri-rəsmi redaksiya)

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi (bundan sonra Nazirlik) Naxçıvan Muxtar Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarlarını, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin normativ hüquqi aktlarını, bu Əsasnaməni, habelə Nazirliyin normativ hüquqi aktlarını rəhbər tutur.

1.3. Nazirlik ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyində olan orqanlar vasitəsi ilə həyata keçirir. Nazirliyin strukturu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən müəyyən edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

Ərazi və ixtisaslaşdırılmış polis orqanları, nizami polis hissələri, tədris, təhsil və tibb müəssisələri, idman cəmiyyəti, habelə digər qurumlar Nazirliyin vahid sistemini təşkil edir.

1.4. Nazirlik müstəqil balansa, öz əmlakına, bank idarələrində hesablara, Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. Nazirliyin fəaliyyətinin maliyyələşdirilməsi və maddi-texniki təchizatı dövlət büdcəsi, habelə qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

1.6. Nazirlik Naxçıvan şəhərində yerləşir.

## 2. Daxili İşlər Nazirliyinin funksiyaları

2.1. Nazirlik öz işini insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik, habelə təkbaşçılıq prinsiplərinin uzlaşdırılması əsasında qurur və qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində aşağıdakı funksiyaları həyata keçirir:

2.1.1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması işinin təşkili;

2.1.2. cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması, cinayətlərin açılması işinin və istintaqın təşkili;

2.1.3. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi işinin təşkili.

*2.1.4. (çıxarılıb)*

*2.1.5. (çıxarılıb)*

## 3. Daxili İşlər Nazirliyinin vəzifələri

3.1. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada Nazirlik aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi məqsədi ilə daxili işlər orqanlarının fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir, cinayətlərin qarşısının alınması və açılması sahəsində profilaktika tədbirlərinin həyata keçirilməsini təmin edir;

3.1.2. cinayətkarlığın vəziyyətini təhlil edir, kriminogen durumun operativ və uzunmüddətli proqnozlarını hazırlayır və bu əsasda müvafiq dövlət hakimiyyəti orqanlarına ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətkarlıqla mübarizənin səmərəsinin artırılması və səlahiyyətlərinə aid olan digər məsələlər barədə təkliflər verir, bu sahədə dövlət proqramlarının hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və qaydada əməliyyat-axtarış fəaliyyətinin, daxili işlər orqanlarının səlahiyyətlərinə aid olan işlər üzrə təhqiqatın və ibtidai istintaqın, habelə kriminalistik və başqa tədqiqatların aparılmasını təşkil edir;

3.1.4. dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasını, əldə edilmiş daktiloskopik məlumatların, bioloji material və məlumatların ölkə üzrə vahid daktiloskopik məlumat bankında və DNT məlumat bankında saxlanılması üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim olunmasını təmin edir, əməliyyat-məlumat, əməliyyat-sorğu, axtarış, kriminalistika, statistika və digər məlumatların, hesabatların məlumat banklarını yaradır, bu banklardakı məlumatların üzərində iş aparılmasını və onlardan istifadəni təşkil edir, arayış-məlumat fəaliyyətini həyata keçirir;

3.1.5. cinayətlərin statistikasının və Nazirlik sistemində statistikanın aparılmasını təşkil edir, məlumatların işlənməsi və ötürülməsi üzrə avtomatlaşdırılmış sistemin inkişaf etdirilməsini və təkmilləşdirilməsini həyata keçirir, sənədlərin arxivdə saxlanılmasını təmin edir;

3.1.6. təhqiqat, istintaq və məhkəmə orqanlarından gizlənən və cəzadan, habelə probasiya nəzarətindən yayınanların axtarışını, xəbərsiz itkin düşmüş şəxslərin, şəxsiyyətinin tanınması mümkün olmayan meyitlərin müəyyənləşdirilməsi işini, habelə oğurlanmış əmlakın axtarılmasını təşkil edir və həyata keçirir;

3.1.7. daxili işlər orqanlarında təhqiqatın və istintaqın aparılması üzrə təşkilat-metodiki tövsiyələrin, Nazirlik sistemi üçün digər təlimatların hazırlanmasını təşkil edir;

3.1.8. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada təhqiqat, istintaq orqanlarının, məhkəmələrin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin icra və probasiya qurumlarının qərarlarının icrası işini təşkil edir;

3.1.9. Azərbaycan Respublikası qanunvericiliyi ilə daxili işlər orqanlarının səlahiyyətinə aid edilmiş inzibati xətalar haqqında işlərə baxılmasını, habelə xüsusi icazələrin (lisenziyaların) verilməsini təşkil edir;

3.1.10. daxili işlər orqanlarının səlahiyyətinə aid olan işlərin - Azərbaycan Respublikası vətəndaşlığına qəbul, vətəndaşlığa bərpa və vətəndaşlığa xitam verilməsi məsələlərinin həllində iştirak edir, vətəndaşlara pasportların və şəxsiyyət vəsiqələrinin verilməsini, yaşayış və olduğu yer üzrə qeydiyyat işini və bu məsələlərə dair mərkəzləşdirilmiş uçot sistemini təşkil edir;

3.1.11. aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə qanunsuz miqrasiyanın qarşısının alınması ilə bağlı tədbirləri həyata keçirir;

3.1.12. yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında qanunvericiliklə daxili işlər orqanlarına həvalə edilən məsələləri həll edir, o cümlədən yetkinlik yaşına çatmayanların baxımsızlığının qarşısının alınmasında digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edir;

3.1.12-1. uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair monitorinqlər aparılmasında iştirak edir;

3.1.12-2. Nazirliyin qanun əsasında müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair illik hesabat hazırlayır;

3.1.13. müqavilə əsasında mülkiyyətçilərin əmlakının mühafizəsi işini təşkil edir, muxtar respublika ərazisində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin təhlükəsizliyinin təmin olunmasında iştirak edir;

3.1.14. sahibsiz əmlakın, tapılmış dəfinələrin, sənədlərin və əşyaların saxlanılması və mühafizəsi işini təşkil edir;

3.1.15. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan hallarda və qaydada cinayət işi üzrə zərər çəkən şəxslərin, şahidlərin və cinayət prosesinin digər iştirakçılarının, habelə məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin və onların yaxın qohumlarının dövlət müdafiəsi və əmlakının mühafizəsi işinin təşkilində iştirak edir;

3.1.16. Azərbaycan Respublikasının qanunvericiliyi əsasında və beynəlxalq normalara uyğun olaraq İnterpolun Azərbaycan Respublikasındakı Milli Mərkəzi Bürosunun fəaliyyətində iştirak edir;

3.1.17. yol hərəkəti təhlükəsizliyinə aid qaydaların, standartların və texniki normaların işlənib hazırlanmasına aid təkliflər verir;

3.1.17-1. dövlət avtomobil yollarında parklanma yerlərinin təşkil edilməsi ilə bağlı müvafiq yerli icra hakimiyyəti orqanı ilə razılaşdırılmış təkliflər verir, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkil edilməsində iştirak edir;

3.1.18. avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki baxışının və qeydiyyatının keçirilməsini, onlara dövlət nömrə nişanlarının verilməsini, habelə yol hərəkəti qaydaları və sürücülük vəsiqələri üzrə imtahanlar qəbul edilməsini və nəqliyyat vasitələrini idarə etmək hüququ verən sürücülük vəsiqələrinin verilməsini təşkil edir, yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə qeydiyyatın, təhqiqatın və istintaqın aparılmasını təmin edir, yol hərəkəti və onun təhlükəsizliyi göstəricilərini vahid dövlət uçotu üzrə müəyyən edir və hesabatını aparır;

3.1.18-1. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin (standart sığorta müqaviləsi növünə münasibətdə), habelə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin fərdi qəza sığortası üzrə qanunvericiliyə uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət edir;

*3.1.19. (çıxarılıb)*

3.1.20. Nazirlik sistemində rabitə sisteminin və vasitələrinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi və məlumat təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görür;

3.1.21. daxili təhqiqatların aparılmasını təşkil edir;

*3.1.22. (çıxarılıb)*

*3.1.23. (çıxarılıb)*

3.1.24. daxili işlər orqanlarının fəaliyyətini əlaqələndirir;

3.1.25. Naxçıvan Muxtar Respublikasının bütün ərazisində və ya onun ayrı-ayrı yerlərində tətbiq edilən fövqəladə və ya hərbi vəziyyət rejiminin təminində, fövqəladə halların qarşısının alınması və onların aradan qaldırılması üzrə vahid dövlət tədbirlərinin, həmçinin karantin tədbirlərinin həyata keçirilməsində iştirak edir;

3.1.26. səlahiyyətləri çərçivəsində mülki müdafiə və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak edir;

3.1.27. səlahiyyətlərinə aid məsələlər üzrə qanunvericiliyin tətbiqi praktikasını ümumiləşdirir, daxili işlər orqanlarına normativ hüquqi işin təşkilində praktiki və metodiki köməklik göstərir, hüquqi biliklərin təbliğini təşkil edir;

3.1.28. elmi-tədqiqat işlərinin keçirilməsini, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin daxili işlər orqanlarında tətbiqini təmin edir;

3.1.29. daxili işlər orqanlarının kadr təminatını həyata keçirir, nazirliyin, digər dövlət orqanlarının və xarici ölkələrin təhsil müəssisələrində kadrların hazırlanmasını, əməkdaşların əlavə təhsilini və mənəvi-psixoloji hazırlığını təmin edir;

3.1.30. daxili işlər orqanları əməkdaşlarının, Nazirlik sistemi işçilərinin və təqaüdçülərinin, həmçinin onların ailə üzvlərinin sağlamlığının mühafizəsi istiqamətində kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər tədbirləri hazırlayır və həyata keçirir, daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsini təmin edir;

3.1.31. səlahiyyətləri çərçivəsində hərbi daşımaları həyata keçirir, daxili işlər orqanlarının xüsusi texnika, rabitə vasitələri, xüsusi vasitə, silah, sursat və digər maddi-texniki ehtiyatlarla təmin edilməsini, dövlət büdcəsi və sair mənbələrdən maliyyələşməsini təmin edir;

3.1.31-1. qanunvericiliyə uyğun olaraq tabeliyində olan dövlət təhsil müəssisələrinin maliyyələşdirilməsini həyata keçirir;

3.1.32. səlahiyyətləri çərçivəsində obyektlərin təmir və tikintisini, layihə-tədqiqat işlərinin aparılmasını təşkil edir, əməkdaşların mənzillə təmin edilməsi, onların yerləşdirilməsi və məişət təminatının yaxşılaşdırılması üçün tədbirlər görür;

3.1.33. Naxçıvan Muxtar Respublikasının hüquq-mühafizə və digər dövlət və bələdiyyə orqanları ilə daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətini təmin edir;

3.1.34. daxili işlər orqanlarının fəaliyyətinə dair vətəndaşlardan və təşkilatlardan daxil olan müraciətlərin qəbulu, qeydiyyatı və baxılması, vətəndaşların qəbulu işini təşkil edir;

3.1.35. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması, cinayətkarlıqla mübarizə məsələlərinə dair əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini və nəşriyyat fəaliyyətinin həyata keçirilməsini təmin edir, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əlaqəni təşkil edir, yayılan məlumatlar üzrə müvafiq qərarlar qəbul edir;

3.1.35-1. ictimai asayişin qorunmasında vətəndaşların iştirakını təşkil edir;

3.1.36. qarşısına qoyulmuş vəzifələri yerinə yetirmək üçün digər hüquq-mühafizə orqanları ilə əməkdaşlıq edir;

3.1.37. öz səlahiyyətləri daxilində penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası üzrə tədbirləri həyata keçirir;

3.1.38. xidməti-tətbiqi idman növlərinin inkişafı proqramlarını, bədən tərbiyəsi və idman tədbirlərinin təqvim planlarını təsdiq edir;

3.2. qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri həyata keçirir.

## 4. Daxili İşlər Nazirliyinin hüquqları

4.1. Nazirlik öz vəzifələrini və funksiyalarını həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hüquqları həyata keçirmək;

4.1.2. əməliyyat-axtarış, təhqiqat, ibtidai istintaq və kriminalistik tədqiqat fəaliyyəti ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş hüquqları həyata keçirmək;

4.1.3. daxili işlər orqanlarının fəaliyyətinə dair qanun və digər normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək, onların təkmilləşdirilməsi barədə təkliflər vermək, öz fəaliyyətinin normativ tənzimlənməsini həyata keçirmək;

4.1.4. səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə Azərbaycan Respublikasının, həmçinin Naxçıvan Muxtar Respublikasının qanunvericilik aktlarının və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin daxili işlər orqanları tərəfindən icrasına nəzarət etmək;

4.1.5. müvəqqəti saxlanma yerlərində xidmətin təşkilinə nəzarət etmək;

4.1.6. xüsusi icazə (lisenziya) verilməsi sahəsində daxili işlər orqanlarının səlahiyyətlərinə aid edilmiş fəaliyyətin həyata keçirilməsinə nəzarət etmək;

4.1.7. aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə miqrasiya sahəsində qanunvericiliklə müəyyən edilmiş hüquqları həyata keçirmək;

4.1.8. yaşayış yeri və olduğu yer üzrə qeydiyyat qaydalarına riayət olunmasına nəzarəti təmin etmək;

4.1.9. yol hərəkəti təhlükəsizliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək;

4.1.10. yol hərəkəti qaydalarının pozulması və yol-nəqliyyat hadisələri üzrə inzibati icraatın həyata keçirilməsini və tənbehlərin tətbiqini təşkil etmək, avtonəqliyyat vasitələrinin və qoşquların dövlət texniki vəziyyətinə nəzarəti təmin etmək;

*4.1.11. (çıxarılıb)*

4.1.12. xidməti və mülki silahın dövriyyəsinə və döyüş sursatının saxlanması qaydalarına riayət olunmasına nəzarət etmək;

4.1.12-1. öz səlahiyyətləri daxilində özəl mühafizə fəaliyyətinə, eləcə də bu fəaliyyət çərçivəsində xüsusi vasitələrin dövriyyəsinə qanunvericiliklə müəyyən edilmiş qaydada nəzarət etmək;

4.1.13. mülkiyyətçilərin əmlakının qorunması sahəsində tam təsərrüfat hesabı əsasında fəaliyyət göstərmək, müqavilələr bağlamaq;

4.1.13-1. vətəndaşları ictimai asayişin qorunmasına cəlb etmək və onlarla əməkdaşlıq haqqında müqavilə bağlamaq;

4.1.14. daxili işlər orqanlarını insanların xilas edilməsi üzrə təxirəsalınmaz tədbirlərin keçirilməsi, ağır və iri miqyaslı qəzaların, yanğınların, təbii fəlakətlərin, kütləvi iğtişaşların və digər fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı ictimai qaydanın təmin olunması işinə, həmçinin digər xüsusi əməliyyatların və tədbirlərin keçirilməsinə cəlb etmək, onların qüvvə və vasitələrinin operativ idarə olunmasını həyata keçirmək;

4.1.15. Nazirlik sisteminə daxil olan orqan və hissələrin, müəssisələrin və təşkilatların fəaliyyətini yoxlamaq və təftişini həyata keçirmək;

4.1.16. Nazirlik sistemi əməkdaşlarının Nazirliyin təhsil müəssisələrinə cəlbini təşkil etmək, tabeliyində olan təhsil müəssisələrinə rəhbərlik etmək;

4.1.17. Nazirlik sistemində maddi və maliyyə vasitələrinin uçotunu təşkil etmək, onların istifadəsinə nəzarət etmək;

4.1.18. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada sərəncamında olan dövlət əmlakı barəsində hüquqları həyata keçirmək;

4.1.19. daxili işlər orqanlarının fəaliyyətinə dair qəzetlər, jurnallar, bülletenlər, normativ hüquqi aktlar toplusu, digər materialları nəşr etmək;

4.1.20. müvafiq beynəlxalq təşkilatlarla, xarici ölkələrin hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqələri həyata keçirmək, səlahiyyətinə aid məsələlərin həlli üçün xarici dövlətlərə və beynəlxalq təşkilatlara öz nümayəndələrinin göndərilməsində iştirak etmək;

4.1.21. öz səlahiyyətlərinə aid edilən məsələlərə dair məhkəmələrdə iddia ilə çıxış etmək.

4.2. Qanunvericiliklə müəyyən edilən digər hüquqları həyata keçirmək.

## 5. Daxili İşlər Nazirliyinin fəaliyyətinin təşkili

5.1. Nazirliyə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri rəhbərlik edir. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad olunur.

5.2. Daxili işlər nazirinin müavinləri nazirin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunurlar.

5.3. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri:

5.3.1. Nazirliyin işini təşkil edir və daxili işlər orqanlarının fəaliyyətinə rəhbərlik edir;

5.3.2. müavinlərin vəzifə səlahiyyətlərini və məsuliyyət dərəcəsini müəyyən edir, nazirlik sisteminin digər vəzifəli şəxslərinin operativ, təşkilati-ştat, kadr, maliyyə, təsərrüfat-istehsalat və Nazirliyin vəzifələrinə aid digər məsələlər üzrə müstəqil qərar qəbul etmək səlahiyyətlərini müəyyən edir;

5.3.3. Nazirliyin aparatının struktur bölmələrinin və tabeliyində olan qurumların əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;

5.3.4. Nazirlik sisteminə daxil olan xidmətlərin, o cümlədən idarələrin, şöbələrin, bölmələrin, şəhər, rayon polis orqanlarının yaradılması və ləğv edilməsinə dair aidiyyəti üzrə təkliflər verir;

5.3.5. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının və tabeliyində olan qurumların strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edir, habelə Nazirliyin daxili nizam qaydalarını müəyyən edir;

5.3.6. Nazirlik sistemində icrası məcburi olan əmrlər verir, əsasnamələri, nizamnamələri, təlimatları, qaydaları, standartları, normaları və digər normativ hüquqi aktları təsdiq edir, habelə dövlət hakimiyyəti orqanlarının rəhbərləri ilə birgə və ya onlarla razılaşdırılmış əmrlər, sərəncamlar, göstərişlər verir, onların icrasına nəzarəti təşkil edir;

5.3.7. vəzifəyə təyin və vəzifədən azad etmə ilə bağlı nazirliyin vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir və müvafiq siyahı (nomenklatur) təsdiq edir;

5.3.8. daxili işlər orqanlarının vəzifəli şəxslərinin Azərbaycan Respublikasının normativ hüquqi aktlarına zidd olan əmr və göstərişlərini ləğv edir;

5.3.9. dövlət büdcəsi vəsaiti hesabına saxlanılan orqanların limit sayı haqqında təkliflər verir;

5.3.10. daxili işlər orqanlarına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün müvəqqəti strukturların yaradılması və ləğv edilməsi qaydalarını müəyyən edir;

5.3.11. qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarını Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanlarına ezam edir;

5.3.12. qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanlarının şəxsi heyətini vəzifəyə təyin və vəzifədən azad edir, o cümlədən əməkdaşları xüsusi rütbə həddi polis mayorunadək (bu rütbə də daxil olmaqla) müəyyən edilmiş vəzifələrə təyin (azad) edir, onları xidmət üzrə başqa vəzifələrə keçirir və daxili işlər orqanlarında xidmətdən xaric edir, "polis mayoru" xüsusi rütbəsi də daxil olmaqla əməkdaşlara növbəti xüsusi rütbələr verir;

5.3.13. Nazirlik sisteminə işə götürülən digər işçilərlə əmək müqavilələrinin, ictimai asayişin qorunmasına cəlb edilən şəxslərlə müqavilələrin bağlanılması və onlara xitam verilməsi məsələlərinə dair Nazirliyin vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir;

5.3.14. daxili işlər orqanları əməkdaşlarını, habelə ictimai asayişin qorunmasına cəlb edilən şəxsləri dövlət mükafatlarına təqdim edir;

5.3.15. daxili işlər orqanları əməkdaşlarını və Nazirlik sistemi işçilərini, habelə Nazirliyin üzərinə qoyulmuş vəzifələrin həyata keçirilməsinə köməklik göstərmiş şəxsləri döş nişanları, fəxri fərmanlarla təltif edir, həmçinin normativ hüquqi aktlarla nəzərdə tutulmuş digər həvəsləndirmə növlərini tətbiq edir;

5.3.16. daxili işlər orqanları əməkdaşlarının, Nazirlik sisteminin digər işçilərinin, habelə Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə kömək göstərmiş digər şəxslərin təltif olunması üçün hədiyyə və mükafatlandırma fondları yaradır;

5.3.17. daxili işlər orqanlarının əməkdaşları, Nazirlik sisteminin digər işçiləri barədə qanunvericiliklə müəyyən olunmuş həcmdə intizam tənbehi tədbirləri tətbiq edir;

*5.3.18. (çıxarılıb)*

5.3.19. dövlət büdcəsindən ayrılan və büdcədənkənar vəsaiti tabeliyindəki qurumlar arasında bölüşdürür, xərclənməsinin həcmini və qaydalarını müəyyən edir, xidmətin xüsusatları və ayrılmış məbləğin həddi nəzərə alınmaqla, daxili işlər orqanlarının sıravi və rəis heyətinin vəzifə maaşlarına əlavə təyin edir, maddi yardım və mükafatlar verir, bu səlahiyyətləri başqa vəzifəli şəxslərə həvalə edir, müvafiq vəzifələr üzrə imtiyazların müəyyən edilməsi barədə Azərbaycan Respublikasının daxili işlər nazirinə təkliflər verir;

5.3.20. təbii fəlakət, fövqəladə vəziyyət şəraitində və ya ayrı-ayrı hallarda, eləcə də birdəfəlik təcili tapşırıqların yerinə yetirilməsi zamanı daxili işlər orqanları əməkdaşları üçün müvəqqəti ərzaq payı normalarını müəyyən edir;

5.3.21. dövlət hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlarla münasibətlərdə nazirliyi təmsil edir, danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq müqavilələri, sazişləri və protokolları imzalayır;

5.3.22. qanunvericiliklə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir və nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə görə şəxsi məsuliyyət daşıyır.

5.4. Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri öz səlahiyyətlərinin həyata keçirilməsini nazir müavinlərindən birinə tapşıra bilər.

5.5. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində Nazirliyin rəhbər işçilərindən ibarət məşvərətçi orqan-kollegiya yaradılır. Kollegiyanın sədri - tutduğu vəzifəyə görə daxili işlər naziri, üzvləri isə nazirliyin digər rəhbər vəzifələri üzrə müəyyən olunur. Kollegiyanın tərkibini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri təsdiq edir.

5.6. Nazirliyin kollegiya iclasında daxili işlər orqanları fəaliyyətinin əsas istiqamətləri, ictimai təhlükəsizliyin və ictimai qaydanın təmin edilməsi, cinayətkarlığa qarşı mübarizənin və icra intizamının vəziyyəti, kadr məsələləri, əmrlərin və digər aktların layihələri müzakirə edilir, daxili işlər orqanlarının vəzifəli şəxslərinin hesabatları dinlənilir, nazirliyin fəaliyyəti ilə bağlı digər mühüm məsələlərə baxılır və müvafiq qərarlar çıxarılır.

5.7. Kollegiya üzvləri müzakirə edilən məsələlərə dair qərar qəbul edərkən səsvermədə bərabər hüquqlara malikdirlər. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir, nazirin əmri ilə elan olunur və həyata keçirilir.

5.8. Kollegiyanın sədri və kollegiya üzvləri arasında fikir ayrılığı olduqda, kollegiyanın sədri öz əsaslandırılmış qərarını həyata keçirir və bu haqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat verir.

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# FƏRMANI

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2001-ci il 16 iyul tarixli 32-II FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də, "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin strukturu"nda və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 5 mart tarixli 107-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2001-ci il 16 iyul tarixli 32-II FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.3-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 2.1.5-ci yarımbənd ləğv edilsin;

1.2. 3.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.4. dövlət daktiloskopik və genom qeydiyyatının aparılmasını, əldə edilmiş daktiloskopik məlumatların, bioloji material və məlumatların ölkə üzrə vahid daktiloskopik məlumat bankında və DNT məlumat bankında saxlanılması üçün Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim olunmasını təmin edir, əməliyyat-məlumat, əməliyyat-sorğu, axtarış, kriminalistika, statistika və digər məlumatların, hesabatların məlumat banklarını yaradır, bu banklardakı məlumatların üzərində iş aparılmasını və onlardan istifadəni təşkil edir, arayış-məlumat fəaliyyətini həyata keçirir";

1.3. 3.1.5-ci yarımbənddən "vahid" sözü çıxarılsın;

ƏSLİ İLƏ DÜZDÜR

1.4. 3.1.10-cu-3.1.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.10. daxili işlər orqanlarının səlahiyyətinə aid olan işlərin - Azərbaycan Respublikası vətəndaşlığına qəbul, vətəndaşlığa bərpa və vətəndaşlığa xitam verilməsi məsələlərinin həllində iştirak edir, vətəndaşlara pasportların və şəxsiyyət vəsiqələrinin verilməsini, yaşayış və olduğu yer üzrə qeydiyyat işini və bu məsələlərə dair mərkəzləşdirilmiş uçot sistemini təşkil edir;

3.1.11. aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə qanunsuz miqrasiyanın qarşısının alınması ilə bağlı tədbirləri həyata keçirir;

3.1.12. yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında qanunvericiliklə daxili işlər orqanlarına həvalə edilən məsələləri həll edir, o cümlədən yetkinlik yaşına çatmayanların baxımsızlığının qarşısının alınmasında digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birlikdə iştirak edir;";

1.5. 3.1.18-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.18-1. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin (standart sığorta müqaviləsi növünə münasibətdə), habelə ümumi istifadədə olan nəqliyyat vasitələri və taksi minik avtomobilləri sərnişinlərinin fərdi qəza sığortası üzrə qanunvericiliyə uyğun olaraq icbari qaydada sığortalanmasına nəzarət edir;";

1.6. 3.1.22-ci, 3.1.23-cü və 5.3.18-ci yarımbəndlər ləğv edilsin;

1.7. 1.3-cü bənddən, 3.1.24-cü, 3.1.27-ci, 3.1.29-cu, 3.1.33-cü, 3.1.34-cü, 4.1.4-cü, 4.1.14-cü, 4.1.19-cu və 5.3.10-cu yarımbəndlərdən müvafiq olaraq "Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası" sözləri çıxarılsın;

1.8. 3.1.30-cu, 5.3.11-ci, 5.3.14-cü, 5.3.16-cı, 5.3.17-ci, 5.3.19-cu və 5.3.20-ci yarımbəndlərdən müvafiq olaraq "hərbi qulluqçular" sözləri çıxarılsın;

1.9. 3.1.31-ci yarımbənddən "və Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının hərbi və" sözləri çıxarılsın;

1.10. 4.1.3-cü yarımbənddən "və Daxili qoşunların" sözləri çıxarılsın;

1.11. 4.1.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.7. aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə miqrasiya sahəsində qanunvericiliklə müəyyən edilmiş hüquqları həyata keçirmək;";

ƏSLİ İLƏ DÜZDÜR

1.12. 5.3.1-ci yarımbənddən "təkbaşçılıq prinsipi əsasında" sözləri və "və Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının" *sözləri* çıxarılsın;

1.13. 5.3.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.3.12. qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanlarının şəxsi heyətini vəzifəyə təyin və vəzifədən azad edir, o cümlədən əməkdaşları xüsusi rütbə həddi polis mayorunadək (bu rütbə də daxil olmaqla) müəyyən edilmiş vəzifələrə təyin (azad) edir, onları xidmət üzrə başqa vəzifələrə keçirir və daxili işlər orqanlarında xidmətdən xaric edir, "polis mayoru" xüsusi rütbəsi də daxil olmaqla əməkdaşlara növbəti xüsusi rütbələr verir;".

2. "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin strukturu" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 5 mart tarixli 107-V FR nömrəli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin Nizamnaməsi"nin 4.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

"4.4. Məktəbin rəisi, rəis müavini, həmçinin orta və böyük rəis heyəti vəzifələrinə daxil olan şəxslər Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.".

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **AZƏR ZEYNALOV**

NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN APARATI • ÜMUMİ ŞÖBƏ

Naxçıvan şəhəri, 06 mart 2023-cü il
№ 150-VI FR

ƏSLİ İLƏ DÜZDÜR